AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№334/3** **07 sentyabr 2021-ci il**

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən aparılmış keyfiyyətə nəzarət üzrə monitorinqlərin nəticələrinin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən təqdim edilmiş 2021-ci il 25 avqust tarixli 03 nömrəli Protokolu müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin 2021-ci il 25 avqust tarixli 03 nömrəli Protokolu nəzərə alınsın (əlavə olunur).

2. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən aparılmış monitorinqlərin nəticələrinə dair monitorinq subyektlərinə qoyulmuş qiymətlər aşağıdakı kimi təsdiq edilsin:

- 1 auditor təşkilatı “ANR Audit” MMC (Direktor: Abbaslı Namiq Rasim oğlu) və 1 sərbəst auditor Axundov Nazim Zakir oğlu – 5 (keyfiyyətli);
- 1 auditor təşkilatı “Smart Audit” MMC (Direktor: Məmmədov Emil Nizami oğlu) və 2 sərbəst auditor – Talıbov Vidadi Musa oğlu və Yusifova Gülnarə İsfəndiyar qızı – 4 (qənaətbəxş);
- 2 auditor təşkilatı – “Forum” MMC (plandan kənar) (Direktor: Səttar Aydın Səttar oğlu) və “LŞ Audit” MMC (plandan kənar) (Direktor: Hüseynov Fərhəddin Əbülqasım oğlu) və 4 sərbəst auditorlar – Əliyev Xaləddin Cəlal oğlu, Hüseynov Şəmşinur Rəşid oğlu, Bənnayev Elxan Bəhmən oğlu və Həsənov Ülvi Dilqəm oğlu (plandan kənar) – 3 (qismən qənaətbəxş);
- 1 auditor təşkilatı “Next Audit Konsaltinq” MMC (Direktor: Həsənov Qara oğlu) və sərbəst auditor Nuriyev Alqış Tərlan oğlu – 2 (Qeyri qənaətbəxş).

3. 2 auditor təşkilatı - 1 audit təşkilatı “Next Audit Konsaltinq” MMC-nin (Direktor: Həsənov Qara oğlu) və sərbəst auditor Nuriyev Alqış Tərlan oğlunun 2022-ci il ərzində növbədənkənar monitorinqləri aparılsın və bununla bağlı 2022-ci ilin Plan-Qrafikinə daxil edilsin;

4. “İnterauditservice” MMC (Direktor: Anar Abbasov), “İnternational Audit” MMC (plandan kənar) (Direktor: Qabil Hacıyev) və “Finexpert” MMC-nin (plandan kənar) (Direktor: Həcət Cəbrayılov) tərəfindən Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müfəttişlərinə monitorinqin aparılması üçün tələb olunan sənədlər təqdim edilmədiyinə görə həmin auditor təşkilatlarının rəhbərlərinə töhmət elan edilsin və nəzərlərinə çatdırılsın ki, tələb olunan sənədləri iki ay müddətində təqdim etmədikləri təqdirdə həmin auditor təşkilatılarına ölkədə auditor fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş icazələrin dayandırılması məsələsinə baxılacaqdır.

5. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, bu qərarın 4-cü bəndində adları qeyd edilən auditor təşkilatlarının plandankənar monitorinqinin aparılması 3 ay ərzində təkrar həyata keçirilsin.

6. Sənədləri təqdim etməkdən təkrarən imtina etmiş "AZAUDİT" MMC (plandan kənar) (Direktor: Afiq İsrəfilov) tərəfindən 2020-ci ildə də sənədlərin verilməsindən imtina edilməsi səbəbindən Auditorlar Palatasının Şurasının 23 fevral 2021-ci il tarixli 328/6 saylı Qərarının 7-ci bəndinə əsasən auditor təşkilatının rəhbərinə töhmət elan edilməsinə baxmayaraq, təşkilat eyni əməli təkrarən törətdiyi üçün "AZAUDİT" MMC-ə ölkədə auditor fəaliyyəti üçün verilmiş 26 iyul 2019-cu il tarixli AT/038 nömrəli icazə dayandırılsın.

7. Sənədləri təqdim etməkdən təkrarən imtina etmiş "Best Audit" MMC (plandan kənar) (Direktor: Anar Quliyev) tərəfindən 2020-ci ildə də sənədlərin verilməsindən imtina edilməsi səbəbindən Auditorlar Palatasının Şurasının 23 fevral 2021-ci il tarixli 328/6 saylı Qərarının 7-ci bəndinə əsasən auditor təşkilatının rəhbərinə töhmət elan edilməsinə baxmayaraq, təşkilat eyni əməli təkrarən törətdiyi üçün, o cümlədən "Best Audit" MMC-ə ölkədə auditor fəaliyyəti üçün verilmiş 14 oktyabr 2016-cı il tarixli AT/092 nömrəli icazə Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 21 aprel 2021-ci tarixli 328/8 nömrəli Qərarına əsasən dayandırıldığından təşkilat sənədləri monitorinq üçün təqdim edənədək həmin icazə bərpa edilməsin.

8. Sərbəst auditor Nuriyev Alqış Tərlan oğlu tərəfindən yol verilmiş haqsız rəqabət halları araşdırılması üçün Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinə (E.İbrahimov) və Haqsız rəqabətə və dempinqə qarşı mübarizə üzrə komitəyə (Ü.Fətiyev) göndərilsin.

9. Auditin təşkili, hesabatlılıq və təhlil idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 6-cı bəndindən irəli gələn məsələləri həll etsin.

10. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**